**Dilarə QULİYEVA**
Ü.Hacıbəyli adına BMA-nın baş müəllimi
Ünvan: Bakı şəhəri, Ş.Bədəlbəyli 98
E-mail: dilaraquliyeva85@gmail.com

# BƏSTƏKAR LALƏ CƏFƏROVANIN YARADICILIĞINDA VƏTƏNPƏRVƏRLİK MÖVZUSU

***Xülasə:*** *Məqalə Azərbaycan bəstəkarı Lalə Cəfərovanın yaradıcılığına həsr edilib. Araşdırmada bəstəkarın vətənpərvərlik mövzularına həsr edilmiş əsərləri işıqlandırılır, onların ifa tarixçələri haqqında məlumat verilir.*
***Açar sözlər:*** *Lalə Cəfərova, vətənpərvərlik mövzusu, bəstəkar*

Lalə Cəfərova müasir Azərbaycan bəstəkarlıq məktəbinin layiqli nümayəndələrindən biridir. O, bəstəkar olmaqla yanaşı, həm də musiqişünas, pianoçu və pedaqoqdur: Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının dosenti, sənətşünaslıq üzrə fəlsəfə doktoru, Azərbaycan Respublikasının əməkdar müəllimi, Azərbaycan Bəstəkarlar İttifaqının üzvüdür. L.Cəfərova fortepiano üçün prelüdlər və 3 hissəli sonata, Simli kvartet, fortepiano və simfonik orkestr üçün 2 konsert, "Bir Xəzər Əfsanəsi", "Rüstəm və Söhrab" baletləri, tar və fortepiano üçün rəqslər, simfonik orkestr üçün "Marş", "Daimi hərəkət", "Adagio" və "Rəqs" əsərləri, viola üçün solo "Xatirə" poeması, simfonik orkestr üçün "Bu gecə", "Səbr et", "Azərbaycan", "Əbədiyaşar Heydər" romansları, "Ata", "Vətənimin övladları", "Ulduz ol" mahnıları, dodekafoniya sistemi ilə yazılmış Sonata, "Caz və estrada əsərləri", "Qələbə Bayramı", "Sərhədçi" marşları, "Qız Qalası" və ya digər adıyla "Məbədin ürəyi" [25], "Qafqazın bu üzündə" [29] sənədli filmlərinə musiqinin müəllifidir.

"*L.Cəfərovanın yaradıcılığından bəhs edərkən xüsusilə qeyd etmək lazımdır ki, o, yüksək səviyyədə peşəkarlığı ilə seçilən bəstəkarlardandır. Onun yaradıcılığı zəngin və rəngarəngdir. Bəstəkarın orijinal musiqi üslubu həmişə tədqiqatçıların diqqətini özünə çəkmişdir. ...Onun yüksək professional bilikləri, bacarığı həm pianoçu, həm də bəstəkar kimi üzvi surətdə cəmlənib*" [31, s.3-5]. Görkəmli Azərbaycan bəstəkarı, dünya şöhrətli Arif Məlikovun sinfinin məzunu olan L.Cəfərova öz bacarıq və istedadı ilə onun seçilən tələbələrindən biri olub. Qeyd edək ki, L.Cəfərova dissertasiya mövzusu qismində sevimli müəlliminin yaradıcılığını tədqiq etmişdir [1, 2, 3]. L.Cəfərovanın əsərlərində milli ruh, xalq musiqimizin çalarlarından bacarıqla istifadə üsulları diqqətəlayiqdir.

L.Cəfərova 1966-cı ildə Bakıda anadan olmuşdur. 1982-86-cı illərdə Asəf Zeynallı adına Musiqi Kollecində fortepiano sinfini bitirərək Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasında fortepiano və bəstəkarlıq ixtisasları üzrə təhsilini davam

etdirmiş, 1991-ci ildə fortepiano, 1997-ci ildə bəstəkarlıq üzrə bitirmişdir. Daha sonra bəstəkarlıq üzrə aspiranturanı 1999-cu ildə sona çatdırmışdır. BMA-nın dosenti (2012), sənətşünaslıq üzrə fəlsəfə doktorudur (2007). Beş dərs vəsaitinin [4, 5, 11, 12, 13] müəllifidir. 1999-cu ildən Azərbaycan Bəstəkarlar İttifaqının üzvüdür. Əsərləri Azərbaycan Bəstəkarlarının Antologiyasına daxil edilmişdir. Beynəlxalq müsabiqələr laureatıdır [22, 23]. Qazandığı uğurları sırasında 30 yanvar 2022-ci ildə premyerası baş tutan "Bir Xəzər əfsanəsi" baleti də vardır. Librettosu müəllifə aid olan bu qəhrəmanlıq dastanında Vətən mövzusu daha qabarıq əks edilmişdir.

İstər kiçik nəğmə, istərsə də böyük səhnə əsərlərində Vətən, onun layiqli övladlarının həyat hekayəsinin əks edilməsi istəyi müəllifin həyat mövqeyi ilə bilavasitə səsləşir.

Bəstəkarın vətənpərvərlik mövzusunda olan vokal-xor əsərləri silsilə xarakterlidir. Bu əsərlər içərisində ümummilli lider Heydər Əliyevə ithaf olunmuş xor üçün "Ağlayan qəlb", "Zəfər marşı" [24] vardır (Nümunə 1). "Azərbaycan sərhəd qoşunları bu gün" adlı müsabiqəyə təqdim olunan, solist, xor və nəfəs alətləri orkestri üçün "Sərhədçi marşı" (Nümunə 2) birinci dərəcəli diploma layıq görülmüşdür (Dirijor Xalq artisti, professor, General-mayor Yusif Axundzadə).

***Nümunə 1***




***Nümunə 2***



Bəstəkarın "Vətənin övladları", "Bakı-Tbilisi-Ceyhan" (Nümunə 3), "Azərbaycan" (söz: R.Muxtar) adlı (Nümunə 4) vokal əsərləri günümüzün aktual mövzularını özündə təcəssüm etdirir. Vətənpərvərlik mövzusu onun bir çox janrlarda yazdığı əsərlərdə ön plandadır. Hətta caz və estrada janrlı əsərlərində bunu aydın izləmək mümkündür.

***Nümunə 3***




***Nümunə 4***




2014-cü il 24 iyul tarixində Qəbələ VI Beynəlxalq Musiqi Festivalında Fortepiano və simfonik orkestr ucun bəstələdiyi 2 saylı konsert [32] atasının əziz xatirəsinə həsr olunub və maraqla qarşılanıb (solist müəllif, dirijor – xalq artisti Fəxrəddin Kərimov).

Lalə Cəfərovanın konsert proqramları sırasında 2019-cu ildə "Yarat" yaradıcılıq mərkəzində "Musiqinin sehri" adlı estrada və caz əsərlərindən ibarət müəllif konsertini [26] xüsusi qeyd etmək olar.




Bəstəkarın sənədli və bədii kinofilmlərə yazdığı musiqi əsərlərində Vətən mövzusu həmişə olduğu kimi ön plandadır. “Qafqazın bu üzündə” [29] adlı Qarabağda baş verən hadisələrdən bəhs olunan birsaatlıq sənədli filmdə müəllif özünün daxili hisslərini sanki dilə gətirmişdir (2020). “Qız qalası” sənədli filminə yazdığı musiqi də bir daha Vətən sevgisinin dərinliyinə dəlalət edir. Xatırladaq ki, bu film dünyanın müxtəlif ölkələrində keçirilən müsabiqələrə qatılmışdır (2004).

Lalə Cəfərovanın fortepiano əsərləri müxtəlif ölkələrdə klassik musiqi nümunələri ilə yanaşı eyni konsert proqramında ifa edilib. 2018-ci il, 19 may tarixində ABŞ-da həmyerlimiz Namiq Sultanovun dünya musiqi inciləri ilə yanaşı L.Cəfərovanın da əsərini proqrama daxil etməsi təsadüfi hadisə deyildi. L.Cəfərova həm də bir pianoçu olaraq öz əsərlərini təqdim edir. Uluslararası Art Sanat Yarışmasında musiqi bölümü üzrə bəstəkar L.Cəfərova “Qrand Prix Diploması”na layıq görülmüşdür (17.10.2018). L.Cəfərovanın əsərlərinin fortepiano partiyası kifayət qədər mürəkkəbdir.




*Məşhur pianoçu Namiq Sultanovun Kolorado ştatındakı konsertinin afişası*

Lalə Cəfərovanın əsərlərində qəhrəmanlıq mövzusu da daima ön plandadır. “Zəfər günü”nə həsr edilmiş “Qarabağ Azərbaycandır” konsertində onun “Zəfər marşı” Azərbaycan prezidenti, Ali Baş komandan İlham Əliyevə həsr olunmuşdur. 2021-ci il 2 noyabr tarixində Heydər Əliyev adına Sarayda keçirilən bu tədbirdə həmin əsər Ü.Hacıbəyli adına Azərbaycan Dövlət simfonik orkestrinin (dirijor F.Kərimov), Azərbaycan Dövlət Xor kapellası (bədii rəhbər G.İmanova) və solist Fəxri Kazım Nicatın ifasında səslənmişdir.

***Nümunə 5***




Lalə Cəfərovanın pedaqoji fəaliyyəti də göz önündədir. 2001-ci ildə ilin ən yaxşı bəstəkarı nominasiyası üzrə müsabiqədə birinci mükafat almış L.Cəfərova yorulmadan öz bilik və bacarığını bugünkü gənclərdən əsirgəmir. 30 illik pedaqoji fəaliyyəti ərzində yetişdirdiyi tələbələri hal-hazırda Respublikanın müxtəlif musiqi müəssisələrində və ondan kənarda çalışırlar.



Bəstəkar 1 simfoniya, fortepiano və simfonik orkestr üçün 2 konsert, simfonik süitalar, vokal-xor əsərləri, onlarla fortepiano sonatası və prelüdlərin, bədii-sənədli filmlərə musiqinin, mahnıların müəllifi olmaqla yanaşı bir neçə dərs vəsaitinin də müəllifidir. Müxtəlif illərdə “Musiqi dünyası”, “Konservatoriya”, “Qobustan”, “Harmony” jurnallarında [1, 3, 16] elmi məqalələri dərc edilmişdir. Onun haqqında bəstəkarlıq fəaliyyətinə başladığı illərdən, “Exo”, “Ekran-efir”, “Bakı Sun”, “Günşəhər”, “Kaspiy” qəzetlərində məqalələr [7, 8, 9, 15, 20, 21] dərc edilmişdir.







Lalə Cəfərovanın uğurlarının böyük hissəsi məhz vətənpərvərlik mövzularının əksi ilə bağlıdır. 2020-ci il 9 may Böyük Vətən müharibəsinin (1941-1945) 75 illiyinə həsr olunmuş mahnı müsabiqəsində “Qələbə bayramı” mahnısı I dərəcəli diploma layiq görülmüşdür.

“Vətənpərvər mahnılar” adlı dərs vəsaitində olan vokal əsərlərindən biri də “Bakı-Tbilisi-Ceyhan” mahnısıdır. Sözləri Ramiz Muxtara aid olan bu mahnı 2006-cı ildə Azərbaycan Yazıçılar Birliyi, “Belçika Azərbaycan Evi” və “Avropa xəbər” qəzetinin təşkil etdiyi mahnı müsabiqəsində I mükafatı qazanmışdır. Əsərin ilk və yeganə ifaçısı xalq artisti Fidan Hacıyevadır. Bəstəkarın diliylə desək, “*Metso soprano özünün yumşaq, məxməri tembrinə görə bir bəstəkar kimi məni də cəlb edib*”. Metso-soprano tembrinə aludəliyi daha bir gözəl “Ata” mahnısını bəstələnməsi ilə nəticələndi. Mahnı bəstəkarın atasının xatirəsinə ithaf olunmuşdur. Sözləri S.Şahbəylinindir. Solo ifa əməkdar artist Rəşidə Behbudovaya məxsusdur. Amma digər vokal səslər də bəstəkarın diqqətindən kənarda qalmamışdır. Məsələn, tenor kişi səsi üçün bəstələdiyi “İşıqçılar”, “Ulduz ol” mahnıları diplom və mükafatlara layiq görülmüşdür (2005, ifaçı Amil Həsənoğlu).

Lalə Cəfərova mütəmadi olaraq öz yaradıcılığını ictimaiyyətin diqqətinə təqdim edir. 2016-cı ildə keçirdiyi müəllif konsertində əməkdar artist, Opera və Balet teatrının solisti Zemfira İsmayılovanın ifasında "Azərbaycan" mahnısı tamaşaçı rəğbəti qazanmışdır. Təqdim olunan vokal əsərlərin bir çoxu tanınmış müğənnilərin, vokalçıların repertuarına daxil olaraq müxtəlif səhnələrdə, televiziya efirlərində səslənmişdir.







Bəstəkarın vətənpərvərlik duyğuları əlbəttə ki, milli musiqi ənənələrinə münasibəti ilə birbaşa əlaqədardır. Dərs vəsaitlərinə daxil etdiyi əsərlər siyahısında sözləri Məhəmməd Füzuliyə aid olan "Bu gecə" romansı milli musiqi ənənələrindən qaynaqlanan melodiya əsaslıdır. Xalq melodiyalarına yanaşma, bəstəkarın "Bülbüllər oxur" adlı xalq mahnısına yeni arajimanda daha səciyyəvidir. İnstrumental girişin mahnıya xüsusi rəng qatması bəstəkarın dolğun təxəyyülünün təzahürüdür.

L.Cəfərova respublikada keçirilən müsabiqə və festivallarda Vətən mövzusunda yaradılmış əsərlərini təqdim etməklə seçilir. Bu əsərlər həm dinləyici rəğbətini qazanır, həm də nüfuzlu münsiflər heyəti tərəfindən layiqincə qiymətləndirilir. 2000-ci ildə ilk ifası olmuş kiçik həcmli simfonik əsər Bəstəkarlar İttifaqı, İdman və Gənclər Nazirliyinin diplomuna layiq görülmüşdür. 2006-cı ildə isə Bəstəkarlar İttifaqı və Mədəniyyət Nazirliyi tərəfindən keçirilən uşaq xoru üçün musiqi müsabiqəsində xüsusi diploma layiq görülmüşdür.







Vətənpərvərlik mövzusunun kulminasiya nöqtəsini "Bir Xəzər əfsanəsi" baletini [19] hesab edə bilərik. "Bir Xəzər əfsanəsi" baletinin premyerası 30 yanvar 2022-ci ildə Azərbaycan dövlət Opera və Balet Teatrında oldu. Balet 2 pərdəlidir, libretto müəllifindir. Obrazların dolğunluğu əsərdə böyük maraq doğurur. Turanla Türkanın toy səhnəsindəki rəqsdə istifadə olunan "Mirzəyi" el havasının həzinliyi dinləyiciyə xüsusi zövq verir. Qəhrəmanlıq, döyüş səhnələrində isə "Çahargah" məqamının sədaları xarakterik olaraq səslənir.



Baş rolların ifaçıları: Respublika müsabiqələri laureatı Ayan Eyvazova (Türkan), Seymur Qədiyev (Turan), İslam Məmmədov (Oğuz), əməkdar artistlər: Anar Mikayılov (Xəzər şah), Makar Terstaudr (İbrahim şah) yüksək peşəkarlıq nümayiş etdirdilər. Əsərin quruluşçu baletmeysteri Azərbaycan xalq artisti, "Zirvə", "Qızıl dərviş", "Humay" mükafatları laureatı Kamilla Hüseynova, dirijor Orxan Həşimov, quruluşçu rəssam əməkdar mədəniyyət işçisi Tehran Babayev, tamaşanın direktoru Əməkdar artist Yuri Lobaçovdur.

Bəstəkarın digər "Rüstəm və Söhrab" baletindən "Tar və fortepiano üçün işləmələri" Azərbaycanın bir sıra görkəmli tarzənləri tərəfindən müxtəlif səhnələrdə ifa olunmuş və olunmaqdadır. Bu əsər Əyyub Quliyevin ifası və simfonik orkestrin müşayiəti ilə lentə alınaraq Azərbaycan Televiziya və Radiosunun "Qızıl fondu"nda qorunulub saxlanılır.

Bəstəkar L.Cəfərovanın milli köklərimizlə bağlılığı musiqisinin elə ilk xanələrindən özünü büruzə verir. "Rüstəm və Söhrab" baletindən "Qızların rəqsi" milli xalq rəqslərinin, eləcə də milli balet ənənələrinə uyğun bəstələnmiş əsərdir. Rəqsdə sazın çalğı üslubundan, aşıq havaları fakturasından istifadə edilmişdir. "Turan igidlərinin rəqsi"ndə də aşıq musiqi elementlərinə istinad olunmuşdur. Dahi Üzeyir bəydən bəri Azərbaycan bəstəkarlarının diqqət nəzərdə saxladığı bu şifahi ənənəli xalq professional musiqi qatının təsiri çox böyükdür. Qəhrəmani obrazların təcəssümündə aşıq musiqisinin istifadəsi xalqın səs yaddaşında oturuşmuş obrazlarla sıx bağlıdır. "Rüstəm və Söhrab" baletində igidlərin qəhrəmani obrazları aşıq ritmləri ilə canlandırılmış, harmoniyalarda saz köklərinə istinad edilmişdir. Musiqi toxumasında axsaq ritmlərin peyda olması da qədim türk musiqisinin əhvalını çatdırır.

Bəstəkar, musiqişünas, pedaqoq, pianoçu kimi fəaliyyət göstərən Lalə Cəfərova bütün ömrünü sənətə həsr etmiş fədakar insanlardandır. Müraciət etdiyi janrlarda – opera, balet, simfoniya, kamera musiqisi, filmə musiqi, vokal əsərlər, caz və pop-musiqisi, marşlarda – Vətən, xalq, millətin azadlıq mübarizəsi həmişə ön plandadır və daha parlaq təmsil edilib. Xalqın qəhrəmanlıq duyğularından ilhamlanan müəllifin bu tərz əsərləri müasir zamanda xüsusilə aktualdır. Vətənə vurğun bəstəkara yeni uğurlara imza atmaq və daim sənət zirvəsində olmasını diləyirik.

**ƏDƏBİYYAT:**

1. Cəfərova L.T. Arif Məlikovun "Məhəbbət əfsanəsi" baletində tembr dramaturgiyası və fakturaya dair. // "Musiqi dünyası" № 3-4 2006. 224 p. (3591–3814)". URL:http://www.musigi-dunya.az/new/read_magazine.asp?id=633 İstifadə tarixi: 2022-04-01.
2. Cəfərova L.T. Arif Məlikovun balet musiqisində tembr və faktura xüsusiyyətləri [Mətn]: sənətşü. n. al. dər. a. üçün təq. ol. dis.: 17.00.02. /L.T.Cəfərova; Bakı Musiqi Akad.- B, 2007.- 188 s. URL:http://www.millikitabxana.az/dissertations/musiq?l=C.
3. Cəfərova L.T. A.Məlikovun balet musiqisində xoreoqrafiya və rəssamlığın vəhdəti. // "Konservatoriya" jurnalı, 2010-3, s. 69-73. URL:http://konservatoriya.az/lib /Konservatoriya 2010- 3.pdf İstifadə tarixi: 28.03.2022

4. Cəfərova L.T. Arif Məlikovun balet musiqisində tembr və faktura xüsusiyyətləri. (Dərs vəsaiti). B.: Mütərcim, 2011, 206 s.
5. Cəfərova L.T. İfaçılıq sənətinin tarixi. Nəfəs və zərb alətləri ixtisası üzrə. Dərs vəsaiti. B.: 2022.
6. Həmidə Nizamiqızı. “Əsrarəngiz “Bir Xəzər əfsanəsi”. *// “Mədəniyyət.az” 02-02-2022.* URL:https://medeniyyet.az/page/news/61017/Esrarengiz-Bir-Xezer-efsanesi.html. İstifadə tarixi: 2022-03-31.
7. Həsənova C. Azərbaycan bəstəkarlarının Zəfər bayramı töhfələri . // 525-ci qəzet. 11.11.21. URL:https://525.az/news/179962-azerbaycan-bestekarlarinin-zefer-bayrami-tohfeleri İstifadə tarixi: 29.03.2022
8. *Həsənova C.* Azərbaycan Bəstəkarlar İttifaqı pandemiya dövründə. *// Mədəniyyət. –2020. 1 iyul, s.5.* URL:http://www.anl.az/down/meqale/medeniyyet/2020/iyul/714117.htm İstifadə tarixi: 2022-03-31.
9. İsmayılova Güllü. Bir musiqi festivalından – sənət bayramından təəssüratlar. // 525-ci qəzet. – 2014. 13 noyabr, s.8. URL:http://anl.az/down/meqale/525/2014/noyabr/401987.htm İstifadə tarixi: 28.03.2022
10. Lalə Cəfərovanın kamera-instrumental əsərləri və onların ifaçılıq xüsusiyyətləri. –B.: Elm və Təhsil, 2016.
11. Lalə Cəfərovanın fortepiano Prelüdləri və Sonatasının ifaçılıq problemlərinə dair. Dərs vəsaiti. B.: 2016.
12. Lalə Cəfərovanın 2 saylı fortepiano konsertinin faktura xüsusiyyətlərinə dair. (Dərs vəsaiti) ADPU. Bakı, 2017.
13. Lalə Cəfərovanın Vokal Silsiləsinin yazı üslubu. (Dərs vəsaiti) ADPU. Bakı, 2017.
14. Rzayeva A. Gənc pianoçunun repertuarında Azərbaycan bəstəkarlarının fortepiano musiqisi. Bakı 2011.
15. Təhmirazqızı S. Arif Məlikov yaradıcılığına daha bir nəzər. (resenziya)// “Mədəniyyət.az”, 02-06-2010. İstifadə tarixi: 28.03.2022. URL:https://medeniyyet.az/page/news/13272/Arif-Melikov-yaradiciligina-daha-bir-nezer-.html

**Rus dilində**

16. Джафарова Л.Т. Легенда о любви. // “Harmony” elektron jurnal. URL:http://harmony.musigi-dunya.az/rus/archivereader.asp?s=1&txtid=210 İstifadə tarixi: 28.03.2022
17. Лала Джафарова: миссия выполнима // Журнал “БАКУ”, 1 мая 2022. URL:https://baku-media.ru/publications/kultura/muzyka/lala-dzhafarova-missiya-vypolnima/ İstifadə tarixi: 13.06.2022

**Saytoqrafiya:**

18. Bakı Musiqi Akademiyasında müəllif konserti. // “AZƏRTAC” Azərbaycan Dövlət İnformasiya Agentliyi. 24.02.2016. URL:https://azertag.az/xeber/Baki_Musiqi_Akademiyasinda_muellif_konserti-930071 İstifadə tarixi: 29.03.2022
19. “Bir Xəzər əfsanəsi”. // Teatro sənət portalı. 2022-01-25 URL:https://teatro.az/az/post/bir-xezer-efsanesi-719 İstifadə tarixi: 2022-03-31.

20. Həsənova C. Milli bəstəkarlıq məktəbinin nailiyyətlərinin nümayişi // Memorial.az saytı. 04 dekabr 2019. URL:https://kaspi.az/az/milli-bestekarliq-mektebinin-nailiyyetlerinin-numayisi İstifadə tarixi: 29.03.2022
21. Əliqızı S., Hüseynova L. Bəstəkarlar İttifaqının 70 illik yubileyinə həsr olunmuş kamera musiqisi festivalı. URL:http://www.musigi-dunya.az/new/read_magazine.asp?id=420 İstifadə tarixi: 28.03.2022.
22. Lalə Cəfərova Discogs-da. URL:https://www.discogs.com/artist/11041850-Lal%C9%99-C%C9%99f%C9%99rova İstifadə tarixi: 28.03.2022
23. Lalə Cəfərova. Vikipediya, azad ensiklopediya. URL:https://az.wikipedia.org/wiki/Lal%C9%99_C%C9%99f%C9%99rova#%C6%8Fs%C9%99rl%C9%99ri
24. Lalə Cəfərova "ZƏFƏR MARŞI". Əsər Cənab Prezident İlham Əliyevə həsr olunub. URL:https://www.youtube.com/watch?v=5YKrSHzjqIg
25. "Məbədin ürəyi" (2005) Sənədli film. İstifadə tarixi: 28.03.2022. URL:https://tobeawoman.az/az/event/18
26. "YARAT Müasir İncəsənət Məkanı "FREESTYLE" layihə çərçivəsində XX-XXl Əsrlər Azərbaycan Rəngkarlığı Muzeyində yeni musiqi tədbirini təşkil edir. "Musiqinin sehri" adlı konsert proqramı əhvalınıza sehrli ovqat qatacaqdır". *19 Aprel 2019.* URL:https://www.yarat.az/index.php?lang=az&page=12&yrtMaincatID=13&yrtCalYear=2019&yrtCalMonth=4&yrtSubcatID=4&yrtEventID=2122 İstifadə tarixi: 2022-03-29.
27. Qəbələ dünya musiqiçilərini bir araya gətirib.//"Mədəniyyət.az",25-07-2014. URL:https://medeniyyet.az/page/news/15148/Qebele-dunya-musiqicilerini-bir-araya-getirib.html?lang=ru İstifadə tarixi: 28.03.2022
28. XIII Beynəlxalq Musiqi Festivalı çərçivəsində kamera musiqisi axşamı keçirilib. // Cultura.gov.az 22.09.2021. URL:http://mct.gov.az/az/umumi-xeberler/13740 İstifadə tarixi: 29.03.2022
29. "Qafqazın bu üzündə" filminin təqdimatı keçirilib. *// "Fakt" onlayn qəzet. 27 dekabr 2021,* URL:https://www.faktinfo.az/news/qafqazin-bu-uzunde-filminin-teqdimati-kecirilib İstifadə tarixi: 2022-03-31.

**Notoqrafiya:**

30. Azərbaycan Milli Konservatoriyası. Azərbaycan və xarici ölkə bəstəkarlarının "Tar ilə fortepiano üçün işlənmiş və köçürülmüş" əsərləri. Bakı, 2014.
31. Cəfərova L.T. Kamera instrumental əsərləri və onların ifa xüsusiyyətləri. (Dərs Vəsaiti). Bakı, 2016, 200 s. URL:https://www.musicacademy.edu.az/images/elmi_neshrler/ceferova_l_kamera_instrumental_eserleri.pdf
32. Cəfərova L.T. Fortepiano və simfonik orkestr üçün konsert № 2. Bakı, 2015, 106 s. URL:https://www.musicacademy.edu.az/images/elmi_neshrler/ceferova_l_konsert.pdf
33. Cəfərova L.T. Fortepiano prelüdləri və sonatasının ifaçılıq problemlərinə dair. Bakı, 2016, 88 s. URL:https://www.musicacademy.edu.az/images/elmi_neshrler/ceferova_l_prelud1.pdf
34. Qarayusifli Ə. Gənc nəsil bəstəkarlarının klarnet və fortepiano üçün seçilmiş əsərləri (Dərs vəsaiti). Bakı, 2016.

**Диляра ГУЛИЕВА**
Старший преподаватель БМА имени У. Гаджибейли

## ПАТРИОТИЧЕСКАЯ ТЕМА В ТВОРЧЕСТВЕ КОМПОЗИТОРА ЛАЛЫ ДЖАФАРОВОЙ

***Аннотация:*** *Статья посвящена творчеству Лалы Джафаровой, представительницы современной композиторской школы Азербайджана. В исследовании выделены произведения, посвященные патриотической тематике. Собраны библиографические сведения о композиторе и приведены истории исполнения некоторых произведений.*

***Ключевые слова:*** *Лала Джафарова, патриотическая тема, композитор*

**Dilara GULIYEVA**
Senior Lecturer at BMA named after U. Hajibeyli

## THE THEME OF PATRIOTISM IN THE WORKS OF COMPOSER LALA JAFAROVOY

***Abstract:*** *The article is devoted to the work of Lala Jafarova, who represents a new generation of Azerbaijani composers. The study highlight works dedicated to patriotic themes. Bibliographic information about the composer is collected and the history of the performance of some works is given.*

***Keywords:*** *Lala Jafarova, patriotic theme, composer*

**Rəyçilər:** sənətşünaslıq üzrə fəlsəfə doktoru, BMA-nın professoru Elnarə Dadaşova
sənətşünaslıq üzrə fəlsəfə doktoru, AMK-nın dosenti Səadət Verdiyeva